MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN «HEYDƏRBABAYA SALAM» MƏNZUMƏSİ TÜRKİYƏ ƏDƏBİYYATINDA - Xalidə XALİD[49]

ÖZET

Türk dünyasının en güclü söz sahiplerinden olan Muhammedhüseyn Şehriyar türkce yazdığı menzume ve şiirleri ile Güney Azerbaycandakı edebi hayata büyük bir canlılık ve tekrarolunmaz bir milli ruh getirmiçtir. Onun dillerde ezber olan Haydar Baba"ya selam menzumesi yazıldığı günden bu zamana kadar sevilerek okunuyor ve hakkında bitip tükenmeyen araştırmalar yapılıyor.

Şehriyar türke ve türkücülüğe karşı duran ve İranda yaşayan türklere zülm eden bir rejimin olduğu memleketde doğdu. Uzun zaman məmləkətində kənarda yani doğduğu Tebriz şehrindən uzakta olmasına rağmen hic zaman dilini ve adetlerini unutmadı. Bu mekalede her zaman Türkem diye, Türkiyeye hayali seferlerde bulunan, ustad Şehriyarın kendisi ve onu dünyaya Haydar Baba şairi kibi tanitan Haydar Baba"ya selam menzumesinin Türkiye edebiyyatındaki akislerinden bahs ediliyor.

GİRİŞ

XX əsr Şərq ədəbiyyatı tarixində ustad Məhəmmədhüseyn Şəhriyarın özünəməxsus yeri vardır. Ötən əsrin otuzuncu illərindən ədəbi aləmdə yüksək yaradıcılıq istedadına malik olan şair İran ədəbiyyatının iftixarı kimi tanınaraq həm

[49] AMEA Nizami adina Ədəbiyyat İnstitutunun "Türk xalqları ədəbiyyatı" şöbəsinin elmi işçisi, Bakü/AZERBAYCAN.

anadilli-türkdilli, həm də farsdilli klassik poeziyanın ən uca zirvəsini fəth edə bilmişdir.

Mərhum sairə Hökümə Billuri özünün «Məhəmmədhüseyn Şəhriyar» adlı monoqrafiyasında ustadı vəsf edərək yazır:

«…Müasir İran poeziyasını əlvan bir gülüstana bənzətsək, Şəhriyar yaradıcılığını o gülüstanın şah gülü saymaq olar. Şəhriyar bədii məramnaməsinin başlıca meyarı xalq həyatıdır. O, şeiri xalq həyatının ayrılmaz bir hissəsi hesab edir, insanın şeirsiz yaşaması təsəvvürünü dilinə gətirə bilir» 1.

Ustad Şəhriyarın Azərbaycan türkcəsində və fars dilində yazdığı əsərlər Orta və yaxın Şərqdə geniş yayılmış, hətta ustadın əsərlərinin əks-sədası Avropa ölkələrinə belə gedib çatmışdır. Hələ şairin sağlığında İran, Azərbaycan, Türkiyə, İraq, Türküstan və digər ölkələrdə onun əsərləri geniş yayılaraq, ədəbi mühitə dərin təsir etmişdir.

Yazıldığı gündən əldən-ələ, gəzmiş dildən-dilə düşmüş, «Heydərbabaya salam» mənzuməsi ustada əbədi və unudulmaz bir şöhrət qazandırmışdır.

Əsərin sadə, ürəyəyatımlı, şirin, Təbriz ləhcəsində yazılışı hətta, oxuma-yazma bilməyən sadə fəhlə və kəndlinin də dillində əzbər olmuşdur.

Filologiya elmləri doktoru, profssor Teymur Əhmədov Şəhriyarın doğma ana dilində yazmaq həvəsini belə aciqlayır:

"… Şəhriyar əlinə qələm aldığı ilk gənclik dövründən doğma dildə şeir yazmaq niyyətində olsa da yalnız otuz yaşından sonra arzusunu həyata keçirmək imkanı tapa bilmişdir. Onu öz vətənləri haqqında az-çox yazan həmyaşıdlarının şeirləri qane etmirdi. Ürəyindən keçirdi ki, həmyerlilərinə, eləcə də həmyaşıdlarına xoş gələn, şirin olan «yerli tərənələr» formasında bir şeir yazsın. Ancaq uzun müddət Tehranda yaşadığından «Azərbaycan kənd ləhcəsinə xas olan şirin ləhcə, uşaqlıq çağlarındakı xatirələri zehnində «solğun və anlaşılmaz tablolar» kimi qalmışdı".2

«Heydərbabaya salam» mənzuməsi Şəhriyar yaradıcılığının ən yüksək zirvəsidir. Bu əsər təkcə onun yaradıcılığının deyil, həm də müasir Azərbaycan ədəbiyyatının zirvəsidir.

Bu əsərin meydana gəlməsi həm şairin öz həyatında dönüş nöqtəsi, həm də Cənubi Azərbaycan ədəbiyyatında yeni bir mərhələnin başlanğıcı oldu. Mənzumənin yazlışı ilə sanki Şəhriyar yaradıcılığında yeni bir Şəhriyar doğuldu.

M.Şəhriyarın «Heydərbabaya salam» mənzuməsinin səs-sədası Türkiyə Cümhuriyyətində ilk dəfə 1954-cü ildə «Azərbaycan» dərgisinin sentyabr-oktyabr, 6-7-ci sayında «Azərbaycan serinin yeni bir harikası» adlı tədqiqat məqalə və bu mənzumə dərc olunduqdan sonra duyuldu.3

1955-ci ildə M.Ə.Rəsulzadə «Azərbaycan» dərgisinin iyul-avqust sayında (4-5) «Ədəbi bir hadisə» adlı məqaləylə çıxış etdi.

«…Şeir, sənətdən anlayan zövq sahibi bir ədəbiyyatçının nəfis və orijinal bir sənət əsəri olan bu mənzuməni «ədəbi hadisə» deyə təqdirdə bizimlə bəqabər olacağına inanırıq. Şəhriyarın «Heydərbaba»sını doğrudan da bir hadisə saya bilərik. Çünki əsər qeyd etdiyimiz səslərdən fərqli olaraq xüsusi bir həsrətin sənət vurğunu bir eşqin refleksiylə meydana gəlmiş bir əsərdir»4.

İllər keçdikdən sonra 1964-cü ildə tanınmış şərqşünas alim Əhməd Atəş ustadın «Heydərbabaya salam» mənzuməsinin elmi izahını Türk oxucusuna təqdim etdi:

«Şəhriyar ruhi sarsıntılar içində kənarda tapmadığı yaxşılıq və təsəllini özünün iç aləmində yenidən yaratdı: uşaqlığının dadlı, acı xatirələri təkbaşına seyr etdiyi bir

kino lenti kimi gözünün önündən keçdi», bunlar əslində olduğundan daha canlı bir şəkildə ifadəsini tapdı və «Heydərbabaya salam» şeiri yarandı»5.

Ölməz Şəhriyarı «Heydərbaba» sairi kimi tanıdan mənzuməsini oxuyan hər bir alim, şair yazıçı bu əsərə biganə qala bilmirdi.

Güneyli-Quzeyli Azərbaycanda olduğu kimi Türkiyədə də bu əsər çoxlarının ilham mənbəyinə çevrildi. Şəhriyar yaradıcılığının pərəstişkarlarından biri, Türk ədəbiyyatşünaslıqının görkəmli simalarından olan Əhməd Cəfəroğlu yazır:

"…İştə «Heydər baba» da bir dağdır. Klassik dağın edebiyyatında şairlerin kendi haklarında bilgi vermeleri, kısacası kendilerini tanıtmaları, mutat olunmakla beraber «Şehriyar» bu gelenege riayet etmemiş, yayınladığı eserine həm önsöz, həm də siirində yer almış olan şahis ve motivlere dair uzun ve tefsilatlı açıklama eklemişdir. Şairin bunca özenerek baş vurması hic de esassız ve lüzumsuz degildir. Payesi kimsenin hayalına getireniyecegi ana ocağı köyüne, her kesi uğratmak, fikir və hayatından çıxartmadığı «Heydərbaba»yı, uluslararası edebiyyat konuları içərisine sokmakdır.» 6

Şəhriyar fars diliylə şöhrət tapmış bir şairdir. Onun türk dilində qələmə aldığı əsərlər onun bu söhrətinə daha da şöhrət qatmış, onu ölməz şair kimi Turk dünyasına tanıtmışdır. Şəhriyar yaradıcılığının araşdırıcılarından dilçi alim Məhərrəm Erkin «Türk kültürü» dərgisinin 1965-ci il 27-ci il sayında «Türk dünyasından xəbərlər» bölməsində yazır:

«…İran Azərbaycanının yetişdirdigi büyük sair Şəhriyarın Türk kültürünün Araştırma Ekstitüsü yaymaları arasında da çıxan Haydar Babaya Selam adlı Türkcə eseri yayınlandığı andan itibaren her tarafta büyük yankılar uyandırmışdır.7

Məhərrəm Erkin bu mənzumə ilə ilgili ardıcıl olaraq «Türk kültürü» dərgisinin 1965-ci il 29-cu sayında «Nüsretullah Fethinin siiri», 30-cu sayında «İkinci Haydar babaya selam», yenə həmin ildə həmin dərginin 31-ci sayında «Haydar baba siirinin yankıları» adlı məqalələr dərc etdirir.

Və 1971-ci ildə alim bu mənzumənin hər iki hissəsini ona yazılan nəzirələrlə birlikdə «Azəri türkcəsi» adlı ilə kitab halında nəşr etdirir. Bu əsər daha sonra 1986-cı ildə yenidən çap olunur.

Şəhriyarın «Heydərbabaya salam» mənzuməsinin ən böyük özəlliyi onun Azərbaycan türkcəsində, yanı doğma ana dilində yazılmasıdır. Bəlkə də şair bu şeirini doğma türkcəsində yox, farsca yazsaydı bu qədər Türk dünyasında məşhur ola bilməzdi.

Şəhriyarın «Heydərbabaya salam» mənzuməsi üzərində Türkiyədə aparılan araşdırmalar toplanılırsa cild-cild kitablar nəşr etdirmək olar.

1970-ci ildə professor Saadet Çağatayın «Azərbaycan» dərgisində çap olunan «Heyder Babaya selam-II» məqaləsində yazırdı: "… Haydar – Baba, şairin büyüdüyü köyün civarında bir bağın adıdır. Şair, Haydar – Babaya hitabederek, okucuya açıkca belli etmeden, bütün düyğularını, dert və sevinclerini şahsı olmaktan çıkarak, kendi cocukluk dünyasının gectigi devri canlandırmakta, özellikle bu ikinci bölümde zamanın yarattığı degişiklileri ve sosyal çöküntüuyü bir toplunun ruhu ve vicdani ile yeterince eşsiz bir tablo çizmekte ve her misrası ile yüksek başarısını isbat etmekdedir"8

Doç.dr.Ali F.Karamanoğlu «İl dayakına selam», prof. dr.A.Y..Akpınar «Heyder Baba"nın Şehriyara selamı» , Yrd.doç.dr.Namik Açıkgöz «Haydar Babaya selam» nezirələri ve yayınlanmamış bir nezire», Osman Fikri Sertkaya «Haydar Babaya selam» şerinin Türkiyedeki akisleri» , Nizamettin Onk "Mehmethüseyn

Şehriyar (1906-18.9. 1988)" adlı məqalələri, eləcə də digər ədəbiyyatçı və dilçi alimlərin bu mənzumə ilə ilgili apardıqları araşdırmaların hər biri ayrı-ayrılıqda tədqiq olunası əsərlərdir.

Bütün bu araşdırmalar və nəzirələrə nəzər saldıqca Şəhriyarın Türkiyədə ən çox tanınan və haqqında yazılan əsəri «Heydərbabaya salam» mənzuməsinin olduğunu görürük.

Türkiyədə həmkarlarından fərqli olaraq ilk dəfə professor, doktor Yüsif Gədikli Şəhriyarın bütün türkcə şerlərini toplayaraq yayımlamış və bu şeirlərin hər birini Türk oxucusuna xüsusi təqdim etmişdir.

Yusif Gədiklinin «Şəhriyar və bütün türkcə əsərləri» adlı kitabı bu günə qədər Türkiyədə Şəhriyar haqqında yazılmış əsərlərin ən samballısıdır. Bu əsərin ilk nəsri 1990-cı ildə, ikincisi 1995-ci ildə nəşr edilmişdir. Türk oxucusunun maraq və diqqətini nəzərə alaraq əsər 1997-ci ildə yenidən təkmilləşdirilmiş formada oxuculara təqdim olunmuşdu.

Azərbaycanda da böyuk maraq doğurduğunu nəzərə alaraq 2007-ci ildə bu əsəri Azərbaycan turkcesinə uyğunlaşdırıb Şəhriyar vurğunlarına təqdim etdik.9

Şəhriyar irsinə maraq və məhəbbəti Y.Gədiklini 1988-ci ilin mart ayında Güneyə – ustadı ziyarətə aparır. Və bu görüşdən ruhlanan alim apardığı araşdırmaların nəticəsi olaraq 1990-cı ildə «Şəhriyar və bütün türkcə əsərləri» adlı kitabını nəşr etdirir.

1993-cü ildə isə o AMEA Nizami adına Ədəbiyyat institutunda «Şəhriyarın həyat və sənəti» adlı doktorluq dissertasiyası mövzusu götürüb 1995-ci ildə bu işi uğurla müdafiə edir.

Dursun Yıldırımın «Haydar Baba′ya selam» monoqrafiyasında Şəhriyar haqqında oxuyuruq:

"…Güney Azərbaycan edebi yazı dili metinleri adlı tasarım «proje», yukarıda sözünü ettigim olguya bir destek mahiyetindetasarlanıp düzenlenmiştir. Tasarımın «projenin» metinleri, Mehemmedhüseyn Şehriyar ile Bulud Karaçorlu Sehend′e aittir. Tasarının «projenin» hedefi, Şehriyar«projenin» ın «Birlik yaratın, söz bir ola biz kişilerde» diye ortaya koyduğu ülküye doğru gayret kervanın çekip götürenlik etmektir.

Şehriyar′ın bu tasarında «projede» yer alan metinleri, Türk dilinde yazdığı «Haydar Baba′ya Selam» adını taşımaktadır. Bu uzun soluklk metinlerin ilkinde Şehriyar, çocukluk geçirdigi Hoşgenab köyünü, köyün büyüklerini, arkadaşlarını ve o günlerin hayatını anlatır. Atayurdundan uzak kalmış bir insanın sıla hasretini,geçmişe özlemini Şehriyar′ın kendinden hareketle böylesine sarsıcı bir üslup ile getirmesi edebiyat dünyasında koparmış, okuyan insanların ruhlarında kasırgalar yaratmıştır."10

Son zamanlarda Şəhriyar irsiylə ilgili İnternet saytlarında da önəmli yazılara rast gəlinir. Belə yazılara misal olaraq «Qazi universiteti Fen- Edebiyyat fakültəsinin professoru, doktor İsa Ozkanın ww.w. pdffactoru.com – saytında verdiyi "Şehriyarın siirlerindeki kültur degerleri» adlı məqaləsində oxuyuq «Şehriyar bir özlem şairidir. Onun özlemi ana dilini konuşup yazmak, tarih və haldeki milli ve edebi kahramanlarını tanıyıp bilmək ve bu atmosferde oluşan havayı eldaşlarıyla teneffüs edib «haz duymak gibi kültürel bir çerçeve ile sınırlıdır"11.

«Bana Tebrizi sorsanız, Şehriyar derim, Şehriyar sorsanız, hasret derim. Hasreti sorsanız, çıvitle çamurlaşmış iki damla gözyaşı derim.» – söyləyən Şəhriyar irsinin vurğunlarından olan Bursa Nur Güler daha sonra yazır: « Şəhriyar bir Təbriz evladıdır. O «gül açdıqca solan dünya»ya «Beli oğul! Bizler hamı hemderdik. Güllər

ekdik amma tikanlar derdik» misralarını yazdıran hayata, şahlık rejimine «Cengizlerin, fironların gesrine, söyle meger az gonupsan, uçupsan. Göre-gore zalımlığın ahırın, sen de onlar geden yolu tutupsan» sözlerini söyleyen hayata, yirmi iki yıl ayını elbiseyi giydiren, siyasi usulsüzlükler torpağında kendisini bikes bırakan, hiç tukenmeyen umudunu yeniden filizlendiği demlerde ise «Gül ekmede qoca bağban! Bükülse bel ne gemin? Dalınca rehmet ohurlar bu gülleri ekene», sesini yükselten hayata, Tebrizde gözlerini açmıştır»12.

M.Şəhriyardan, əsasən də «Heydərbabaya salam» mənzuməsindən riqqətə gələrək şeir və nezireler yazan şairlərin sayı-hesabı yoxdur. Türk dünyasının hər bucağından bu səsə səs verildiyini bu zamana kimi bütün Şehriyarşünaslar tesdiq etmişlər.

Azərbaycan, İraq və digər ölkələr ilə bərabər Türkiyədə də bu mənzuməyə çoxlu sayda nəzirələr yazılmışdır.

Türkiyə Cümhuriyyətində bu əsərə nəzirə yazan şairlərdən Cənani Dökmeçi, Hayrettin Tökdemir, Verdi Kanqılıc, Aydın Erol, Ali Korkut Akbaş, Servet Gurcanhan, Tuncer Gülensoy, Nihat Yücel, Mustafa Kayabey, Əsəd Kabaklı, Emin Guzelsoy, Firat Kızıltuğ və başqalarını misal gətirmək olar.

Doktor Y.Gədiklinin «Şəhriyar və bütün türkcə seirləri» kitabında oxuyuruq:

«…»Heydərbaba» Türkiyədə də böyük əks-sədalar yaratmış, şairlərimiz əllərinə qələm alaraq nəzirə və cavablar yazmağa başlamışlar. Türkiyədə Şəhriyar və Heydərbabaya yazılan cavab və nəzirələri Osman Fikri Sertkaya toplayıb üç məqalə şəklində «Türk Kültürü» və «Azərbaycan türkləri» dərgisində dərs etdirmişdir» 13.

Osman.F.Sertkaya «Haydar babaya selam siirinin Türkiyedeki akisleri» I bölüm «Türk külturü» dərgisində 1969-cu ildə, ikinci bölümü isə sentyabr sayında, yenə həmin dərginin 1989-cu ilin fevral, ikinci bölüm isə «Azərbaycan türkləri» dərgisinin aprel sayında , «Heydərbabaya salam» və Şəhriyara Türkiyəli şairlərin yazmış olduqları nəzirələri oxuculara təqdim etmişdir.14

Alimin «Türk kültürü» dərgisinin 1989-cu ilin fevral sayında çap etdirdiyi «Haydar babaya selam» siirinin Türkiyedeki akısləri» başlıqlı məqaləsinin II hissəsində oxuyuruq:

«…Şəhriyara Türkiyədə yapılan nazireler iki quruba ayrılmaktadır:

1.Dağrudan doğruya «Haydar Babaya Selam» şiirini örnek alıp, aynı şekil ve üslupla Anadolunun her hangi bir bölgesini anlatan nazireler.

2.Şehriyarın «Haydar Baba» şirine cevap maniyyetinde olan, Şehriyari kutlayan ve Şahriyara seslenmek qayesiyle yazılan nazireler.» 15

O.F.Sertkaya daha sonra iki qrupa ayırdığı nəzirələrə acıqlama verərək yazır:

«İki qurupa giren nazireler arasında Cenani Dökmecinin Elazığ ve Harput Yöresini işleyen «Bizim Dilden Bizim Köu» adlı 79 dördlükten müteşekkil haziresinden 16 kitayı (1., 2., 3., 21., 27., 29., 33., 42., 47., 49., 52., 66, 70, 76, ve 79 kitablar) «Cenani Dönmeçi ve siirleri» adlı mekalemde yayımlamıştım.

…İkinci quruba giren nazireler arasında daha önce yayımladığım üç nazireye şimdi yeni örnekler ilave ediyorum…»16

Tuncer Gülemsoy «Şehriyara seslema» neziresində

Şehriyarım «Heyder Baba» guldü mü?
Selam saldım, oralara geldi mi?
Özüm burda, sen gurbette neyleyim,
Diş tırnakta, tırnak ette neyleyim?

-deyərkən Şəhriyardan uzaqda olmasından, ustadı görmək həvəsindən bəhs edir:

Yurdum Asya, Kırım, Kazan uzakta
Düşman oğlu, elı, ipte, uzakta,
Ben burada, beklemekt neyleyim,
Sen orada "el etmkte" neyleyim.

Nihat Yücel isə «Şehriyara selam» nəziresində:
… Selam Şehriyar" a Haydar Baba′ ya,
Sürdüğü saltanat kalır mı şah ′a?
Kurtuluş, yakındır sanma ki rüya,

Öc duygusu yüreğimde kan gibi.
Birgün patlayacak bir volkan gibi!

- söyləyərək şahlara, türkə düşmən olmuş fars cəlladlarına məkan olmuş İran deyilən yerdə- Şəhriyara və onun timsalında türk oğlu türkə çəkdirilən acılara təssüflənir:

Tutsak olmamışam ben şimdiye dek,
Arap, Acem dün köləmdı, bu gerçek…
Elimiz, kolumuz bağlı ne diyek?
Alınacak bir gün ata toprağı,
Şehr"yar yüreklerde umut bayrağı!

Şair Ustada yazdığı nəzirəylə kifayətlənmir və ona daha iki rübai həsr edir:

I

Türk birliği çok yakın yakın Şehriyar
Bir gün olur İran"a akın Şehriyar
Hic bir kuvvet söndüremez Türklüğü ay
Türklük yüce gökte bir çakın Şehriyar.

II

Tutsak yaşamak Fars"sa çekilmez dert bu
Bir gün dilerim gönlüne serpilsin su
Yurdunda garip kalan Nihat"tan bil ki
Şehriyar sana var selam gönül dolusu. 17

Şəhriyarı Şərqə sevdirən özəlliklə də qardaş Türkiyədə ona tükənməz sevgi qazandıran şairin dilinin sadəliyi və şirinliyi, eləcə də onun doğma ana dilinə sonzuz sevgisi və əsil vətənpərvər şair olması idi.

Şəhriyar irsinə tükənməyən sevgi bəsləyən qardaş məmləkətdə bu günə qədər şairin həyat və yaradıcılığı ilə ilgili araşdırmalar aparılır, yeni-yeni elmi əsərlər və nəzirələr yazılmış və bundan sonar da nə qədər ki, həyat var, nə qədər ki şeriyyət var ustadla ilgili daha samballı əsərlər Şəhriyarsevərlərə təqdim olunacaq və gələcək nəsillərə Türk xalqının misilsiz mədəniyyət abidəsi olan Şəhriyarın "Heydərbabaya salam" mənzuməsi yadıgar qalacaqdır. Əhməd Bican Ercilasunun diliylə desək:

"...Türk ədəbiyyatı ucsuz-bucaqsız bir xəzinədir.(…) Budur, bu ucsuz- bucaqsız xəzinə içində 1954-cü ildən bu günə qədər elə bir cəvahir vardır ki, onu yüzlərcə sandıq iində saxlasanız da, parıltısını yox edə bilməzsiniz. Onun işıltısını İstanbuldan,

Bakıdan qamaşaraq seyr etdik. Tehranda, Təbrizdə, Səlcuqlu əcdadlarımızın uşaqlarının yurdunda bir külçə qızıldı Məhəmmədhüseyn Şəhriyar”18

ƏDƏBIYYAT:

1. H. Billuri.Məhəmmədhüseyn Şəhriyar. Bakı. Elm. 1984.s.4
2. T. Əhmədov. Humanist ideyalar carcısı. Seyid Məhəmmədhüseyn Şəhriyar. “Fyuzat” dərgisi.2007. Mart. Say 3/35. s.40
3. Azerbaycan şiirinin harikası. “Azerbaycan” dergisi.Eylül-Ekim.1954. sayı6-7(30-31)
4. M.Ə.Rəsulzadə.
5. A. Ateş “Şehriyar və Haydar baba”ya selam”. T.K.A.E. Yayınlarından. SeriIY. Sayı B2. Ankara Universitaesi Basımevi.s.-10
6. A. Caferoğlu. Şair Şehriyar.Türk dünyası Araştırmaları. Ankara.1964.Sayı 1.s.-133
7. M.Ergin. Türk dünyasından haberler. Türk kültürü dergisi. Ocak. Sayı 27. s-71-72(211-212)
8. S.Çağatay. Haydar Baba”ya selam II . Azerbaycan dergisi. Yıl XIX .Say 202. s.-14
9. Y.Gedikli. Şəhriyar və bütün türkcə şeirləri. Yom yayınları. Bakı 2007. Azərbaycan türkcəsinə uyğunlaşdıran Xalıdə Xalid.
10. D.Yıldırım. Haydar Baba”ya selam. Ankara. Atatürk Kültür, Dil, Tarih Yüksek Kurumu Türk Dil Kurumu Yayınları.813/5. s. YII
11. Prof. dr. İ. Ozkan-Şehriyarın şiirlerindeki kültür degerleri. Sosyal Bilimler İntitüsü Dergisi. Sayı.20. yıl 2006/1 sayfa 143-151. internet sayfası.www.pdffactoru.com
12. Busra Nur Güler. Tebrizin ruhu ve Şehriyar.Doğumun 100 Yılı hatırasına. File. Localhost.C. 28.11.2008
13. Y.Gedikli. Şəhriyar və bütün türkcə şeirləri.Yom yayınları. Bakı 2007. seh.127
14. Osman.F.Sertkaya.Haydar baba”ya Selam şirinin Türkiyedeki akisleri-I. Türk kültürü dergisi. Eylül 1969.Say 3.s. 836-841
15. Osman F.Sertkaya.Haydar Baba”ya selam şiirinin Türkiydki akisleri-II. Türk Kültürü dergisi.Ankara. Şubat 1989. Say 310.s.93
16. age.s.93
17. age.94-97
18. A.B.Ercilasun. Muhammed Hüseyn Şehriyar-Türk dünyası en büyük şairlerinden birini kaybetti. Türk Kültürü. Dergisi. Ankara. Aralık 1988. say308. s.778-779